# Şamil Mahmudbəyovun xatirəsi yad edildi





**Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, görkəmli kinorejissor Şamil Mahmudbəyovun anadan olmasının 95 illiyinə həsr edilmiş xatirə gecəsi Mədəniyyət Nazirliyi, Kinematoqrafçılar İttifaqı və Dövlət Film Fondu tərəfindən təşkil edilmişdir.**

DFF-də təşkil olunan tədbirin iştirakçıları əvvəlcə kinorejissorun ömür səhifələrinin əks olunduğu videofilmə baxmışlar.

Kino tarixçisi, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə, rejissor, Əməkdar artist Elxan Qasımov, Əməkdar incəsənət xadimi, rejissor, kinooperator Nizami Abbas və başqaları çıxış edərək sənətkarla bağlı xatirələrini bölüşmüşlər.

Onun peşəkar rejissor kimi filmlərə gətirdiyi yeniliklərdən, aktyorlarla işindən, filmin texniki həllindəki ustalığından, insan, dost, həmkar kimi xasiyyətlərindən danışdılar.

Qeyd olundu ki, Ş.Mahmudbəyov Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olub, görkəmli rejissor S.Gerasimovun və aktrisa T.Makarovanın kursunda təhsil alıb, 1954-cü ildən Bakı kinostudiyasında (Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında) rejissor vəzifəsində çalışıb.

Bir neçə il rejissor assistenti və 2-ci rejissor kimi çalışan Ş.Mahmudbəyovun kinoda ilk işi 1960-cı ildə çəkdiyi “Əyri yolla qazanc” adlı qısametrajlı film olub. Sonrakı illərdə o, “Romeo mənim qonşumdur” lirik komediyasını, “Qaraca qız” kinonovellasını, müxtəlif janrlara aid “Torpaq. Dəniz. Od. Səma”, “Həyat bizi sınayır”, “Skripkanın sərgüzəşti”, “Dörd bazar günü”, “Dərviş Parisi partladır” (K.Rüstəmbəyovla birlikdə), “Bayquş gələndə”, “Od içində”, “Tənha narın nağılı” (H.Turabovla birlikdə) və başqa filmləri çəkib.

Çıxışlarda rejissorun 1969-cu ildə ekranlaşdırdığı “Şərikli çörək” filminin ona böyük şöhrət qazandırdığı vurğulandı. Elxan Qasımov rejissora bu filmin Böyük Vətən müharibəsi illərində Bakı və bakılılar haqqında səmimi söhbət, ilıq xatirə tablosu olduğunu və ümumiyyətlə, rejissorun bütün ekran işlərində həzin və səmimi duyğuları önə çəkməyə çalışdığını bildirdi.

Çıxış edənlər Ş.Mahmudbəyovun aktyor işini də qeyd edərək kinoyaddaşa köçən obrazlarını da xatırladılar. “Yenilməz batalyon”dakı Qaçaq Əlimərdanı ustalıqla ifa etdiyini, “Fəryad” filmində isə erməni həkimin mənfi obrazını inandırıcı canlandırdığını dedilər. Natiqlər sənətkarın “Mozalan” satirik kinojurnalı üçün çəkdiyi və çəkildiyi filmlərdəki işini vurğuladılar.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 25 oktyabr. S. 9.